# SƏMƏD BEHRƏNGİ - "BALACA QARA BALIĞ"IN TALEYİ

*(Əvvəli ötən sayımızda)*

**Bəhruz Dehqani:**

Ondan çox yaşamaq asan deyil. Çünki, ondan çox yaşamaq həm də onsuz yaşamaqdır. Hər sarıdan yaşamaqdan məmnun idi, ancaq zərərli meyara görə pul qazanıb yağ-bal içində üzənlərə baxırdı, heç vaxt yağ-bal içində üzmək üçün zərərli işlər etmək istəməzdi. Belə edənlərə göz yummazdı. Doktor Sədinin "Test onun meyarı idi" kitabında Səədi çox da haqlı deyil. Hər şey burada açıq-aydın yazılmayıb. Ona görə də, mən onun haqqında hər şeyi açıq-aydın söyləyəcəyəm.

Səmədin böyük həyat yolu və gələcəyə inamı və imanı var idi. O nə pessimist idi, nə də bədbin idi. Realist idi və realizmi təbliğ edirdi. Gələcək həyat gözləri qarşısında bəsitləşmirdi. Gələcəyi tez görə biləcəyimizi deyirdi. Lakin, o, həmin gələcəyi görə bilmədi. Hər halda, həqiqəti inkar etmək olmaz. Sadəcə mənfəəti düşünən, zərər olanda etiqadı düşünən böyüklər barədə az hekayə yazmışdı. Bunun səbəbini deyirdi: "Mən gələcək üçün yazıram. Uşaqlar bizim gələcəklərimizdir. Yəni, mən uşaqlar üçün yazıram."

Səmədin bədəni dağ boyda idi. İlk baxışdan heç kim bu çəlimsiz bədəndə böyük bir iradənin nə olduğunu bilmədi. Vicdanlarını icarəyə götürənlər Səmədin satılmadığını görüb təəcüblənirdilər.

Ona görə də, kəndlilər və bazardakı satıcılar, habelə uşaqlar onun yanında özlərini daha rahat hiss edirdilər. Suda öz yolunu tapan balıq kimi. "Səməd bu dövrün insanlarından deyil" deyən Axircan əslində düz deyir. Səməd Gələcək idi. Vaxtsız sönən gələcək.

Şəhər həyatına çox nifrət edirdi. Müasir sənətdən dəm vuranlara nifrət edirdi. Ən vacib məsələni həll etməyib özünü Qərblilər kimi aparan, yekəxanalanlara nifrət edirdi. Şəhərdəki "savadlı"lar onun fikrincə, hoppanıb dərin və boş bir çuxura düşürdülər. Sözləri qısqanclıq kimi başa düşülsə də, nifrət idi. Onun fikrincə, onlar boşluq və məqsədsizlik içində yaşayırdılar. Həyatları bunun üzərində qurulmuşdu. Müvəqqəti.

Səməd bu şəraitdə qala bilməyəcəyi üçün başqa bir kəndə köçdü və müəllimliyinə davam etdi.

Ədəbi və bədii əsər onun hədəfinə çatmaq üçün bir vasitə idi. Bütün hekayə və məqalələrində uşaqlarla danışırdı sanki. Orta xalqın dilinə uyğun bir şəkildə yazırdı yazılarını.

"Sevgi əfsanəsi"ndə lalə çiçəyinin toxumunun düşməməsi və onun "ölümü" ilə yer üzündəki bütün ölmüşlərə və yer üzünün özünə can verir. Tək bunun üçün öz canını qurban verir.

Fırtınaya boyun əyməyən Səməd əmi "bir qaşıq su"da boğuldu. Tehrandakı və Təbrizdəki həmkarlarıyla sevincə qərq olmadı, Arazın sularında bir daha qərq olmamaq üzərə sulara qərq oldu.

**Qulamhüseyn Səidi.**

**Səməd Behrəngini daha yaxından tanıyaq.**

Səməd Behrənginin doğum tarixi var, lakin, ölüm tarixi yoxdur. O, həmişə yaşayıb, yaşayır və yaşayacaqdır! Onun cismani gedişi ən dəhşətli bir hadisə idi. Bu vəziyyəti insan necə izah edərdi, bilmirdi. Ölümü belə onun həyatı idi. İnanılmaz həyatı.

Onun bu inanılmaz həyatı həmişə həyəcanlarla dolu idi ki, insan Behrənginin həyatını kitaba köçürüb varaqlayanda, elə bilir ki, əfsanə oxuyur.

O, müəllim idi. Kəndlərdən "sürgün " olunsa da, kəndləri çox sevirdi. Onun kənddəki kəndlilərlə heç bir fərqi yox idi. O qədər sadə idi. Qara paltosu ilə illər uzunu yol gedirdi. Yerlərdən yerlərə tək qayəsi oxumaq və oxutmaq olaraq gedən Səmədi artıq hamı tanıyırdı.

Onun şedevri də onun inanılmaz həyatı idi. O hər zaman öyrənirdi. Boş vaxtlarında, ya da asudə vaxtlarında kitab istəyən gənclər üçün kitab mağazalarını gəzirdi, dolaşdıqdan sonra aldığı kitabları kitabxanaya qoyar, həm özü oxuyar, həm də oxudardı. Bəzən bir kitab mağazasında başqa bir kitab istəyən müştəri ilə mübahisə edərdi. Çünki, həmin kitab həmin müştərinin yaşına uyğun deyildi. Mübahisə etdikdən sonra axır ki, razılaşan müştəri Səmədin tövsiyə etdiyi kitabı götürüb gedərdi.

Səməd ictimai kitabxanaları da gəzərdi. Kitab götürər, masasına oturar və kitabı tez oxuyub müzakirəsini edərdi. Tez oxumağına görə heyrətimizi gizlədə bilməzdik. Oxumaqda çox tez idi.

Səmədin hər dəfə yeni kitabı çap olunanda ona minlərlə məktub ünvanlanırdı. Bu məktubların yarısından çoxunu uşaqlar yazardı.

O, heç əziyyət çəkmədən və üşənmədən bu məktubların hamısına cavab yazardı. Uşaqlar çox vaxt məktubla kitab istəyərdilər. Səməd də tez göndərərdi. Məktublar o qədər çox olurdu ki, Səmədin cibi məktublarla dolurdu və bir də kitabı çıxanda o saat bilirdik ki, onun cibi məktublarla dolacaq.

Onun ölümü inanılmaz ölümdür. Buna ölüm demək olmaz. Həqiqətən, Səmədin ölümü mümkündürmü? Xeyr, deyil. Səməd ölməyib. Səməd sağdır. Hal-hazırda burada, Mamağandadır və məktəbdə uşaqlara dərs keçir, uşaqlarla uşaq olur. Marağa ətrafındakı kəndlərdə bağı, bostanı var. Meyvələri gül açır. Parkların birində skamyada qoca qadınların yanında oturub. Gülüstan bağının arxasında, döyüş bölgəsinin ətəyində oturub əsgərlərə xeyir-dua göndərir. O kitabxanalardadır. Yeni bir kitab oxuyur. Yeni bir "Sevgi əfsanəsi" yazır.

Yox! Yalandır! İnanma! Səməd ölməyib! İnanma! Səməd sağdır! Buna inan!

***(Davamı var)***

Kredo 2020.- 22 iyul.- S.10.